**UOT: 327**
https://doi.org/10.59849/2409-4838.2025.2.60

# REGİONLARIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ROLUNA DAİR (AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNİN TİMSALINDA)

**Nəzrin Gündüz qızı Kərimova**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
*lilia.ahmedova@mail.ru

*Məqalədə Azərbaycanın şimal-qərb bölgəsindən, xüsusən də Şəki rayonundan nümunə kimi istifadə etməklə ölkənin beynəlxalq əlaqələrinin qurulmasına regional töhfənin konkret aspektləri araşdırılır. Xüsusilə vurğulanır ki, Azərbaycanın unitar idarə forması ölkə regionlarının ölkənin xarici əlaqələrində iştirakının özünəməxsus qaydalarını və xüsusiyyətlərini müəyyən edir; regionlar federativ dövlətlərdə olduğu kimi subyektivlik atributlarına malik tərəflər kimi deyil, bütün ölkənin strateji məqsədlərindən irəli gələn vəzifələri yerinə yetirməyə çağırılan Azərbaycan Respublikasının tərkib hissəsi kimi çıxış edirlər. Məqalədə ölkənin şimal-qərb bölgəsindən nümunə götürməklə, bu tezis müxtəlif faktlar əsasında aydın şəkildə təsdiqlənir. Eyni zamanda, Azərbaycanın xarici dünya ilə ümumi mədəni ünsiyyətinə töhfə verən regionun mədəni əlaqələrinə xüsusi önəm verilir. Bu regionda beynəlxalq əməkdaşlıq faktlarının təhlili belə qənaətə gəlməyə imkan verdi ki, regionların, ilk növbədə Azərbaycanın şimal-qərb bölgəsinin potensialından Azərbaycan mədəniyyətinin və incəsənətinin dünyada tanıdılması üçün istifadə oluna bilər, iqtisadi imkanlar və turizm potensialı sərfəli perspektivlər vəd edir.*

***Açar sözlər:*** *regionlar, Aərbaycanın şimal-qərb bölgəsi, beynəlxalq münasibətlər, İpək Yolu” Beynəlxalq musiqi festivalı, xarici iqtisadi əlaqələr*

## GİRİŞ

Danılmaz faktdır ki, beynəlxalq əlaqələrin qurulmasında və inkişafında müxtəlif bölgələrin önəmi artmaqdadır. Burada söhbət sadəcə bu və ya digər bölgənin dövlətlərarası siyasi, iqtisadi və mədəni əlaqələr sistemində verdiyi töhfələrlə məhdudlaşmayaraq, həmin bölgənin öz spesifik, özünəməxsus özəlliklərindən çıxış edərək, bu əlaqələrə keyfiyyət cəhətdən nə kimi yeni çalarlar qatması kimi mətləblərə də toxunur. Başqa sözlə, Azərbaycan bölgələri sırf ümumdövlət əhəmiyyətli proqramlar çərçivəsində fəaliyyətlə yanaşı, istər ölkəmizin xarici tərəfdaşları ilə əməkdaşlıq əsnasında münasibətlərinin inkişafında, istərsə də beynəlxalq səciyyəli layihələrin gerçəkləşdirilməsində yaxından iştirak edir. Bununla da bölgələrimiz altmilli (subnational) subyekt kimi bir tərəfdən Azərbaycanın müxtəlif ölkələrlə münasibətlərində yer alır, digər tərəfdən isə lokal (yerli) hədəflərin icrası üçün öz resurs bazasını genişləndirmiş olur. Məsələ ondadır ki, bölgələrin beynəlxalq əlaqələri onun təsərrüfat inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, cazibədar investisiya iqliminin formalaşmasına, yeni texnologiyaların cəlbinə, habelə bölgənin özünün ixrac məhsulunun irəli çəkilməsinə müsbət təsir göstərir.

Azərbaycan, bəlli olduğu kimi, unitar dövlətdir. Ona görə də ölkəmizin ayrılmaz parçaları olan bölgələr federativ dövlətlərdə olduğu kimi, dövlətlərarası münasibətlərdə hansısa müstəqil subyekt keyfiyyətlərinə yiyələnmiş tərəf kimi deyil, bir bütöv olaraq Azərbaycan dövlətinin strateji hədəflərindən irəli gələn vəzifələrin icrasına çağırılmış tərkib hissəsi qismində çıxış edir. Yəni bölgələrin ölkəmizin beynəlxalq əməkdaşlığına qatılması heç də onların beynəlxalq hüquqi subyektlik, habelə müvafiq resurs bazası və təsir mexanizmləri əldə etməsi anlamına gəlmir. Bu məqam olduqca mühümdür.

Qeyd etməliyik ki, Azərbaycanda regional əməkdaşlığın inkişafına xüsusi diqqət yetirilir. Regionlararın beynəlxalq əlaqələrdə iştirakı, regionlararası ticarət-iqtisadi və humanitar əlaqələrin hə-

yata keçirilməsi və inkişafı prosesində öz imkanlarına və xüsusiyyətlərinə görə aşağıdakı vəzifələri həll etməyə qadirdir: region əhalisinin həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılması; regionda davamlı iqtisadi artım üçün əlverişli mühitin yaradılması; qarşılıqlı faydalı ticarət proseslərinin stimullaşdırılması, əməkdaşlıq edən regionlar arasında iqtisadi, mədəni və humanitar əlaqələrin inkişafı və möhkəmləndirilməsi; regionda mövcud olan konkret problemlərin aradan qaldırılması, regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması; əməkdaşlıq edən regionların əhalisi arasında etimad, qarşılıqlı anlaşma və mehriban dostluq mühitinin yaradılması, əməkdaşlıq sahələrinin və formalarının gücləndirilməsi və şaxələndirilməsi [25].

## ƏSAS HİSSƏ

Regionların beynəlxalq münasibətlərdə rolunu şərti olaraq aşağıdakı bir-biri ilə əlaqəli əməkdaşlıq sahəsinə bölmək olar: 1. Beynəlxalq təşkilatların, o cümlədən BMT sisteminin təşkilatlarının fəaliyyəti çərçivəsində əməkdaşlıq; 2. Xarici ölkələrin regional idarələri ilə əməkdaşlıq; 4. Bələdiyyələr səviyyəsində əməkdaşlıq. Regionlararası əlaqələrdə ki, sosial-iqtisadi sahə; təhsil; mədəniyyət; bədən tərbiyəsi və idman; sosial layihələrin həyata keçirilməsi; ekologiya; enerji; səhiyyə və sair kimi bir neçə əməkdaşlıq modeli mövcuddur [25].

Ölkədaxili regionların beynəlxalq fəaliyyətinin müxtəlif aspektlərinin öyrənilməsi həm nəzəri, həm də praktiki cəhətdən faydalı və zəruridir. Müasir dövrdə respublikamızın sərhədyanı bölgələri beynəlxalq iqtisadi proseslərin, mədəni mübadilələrin fəal iştirakçılarına çevrilir, eyni zamanda ölkəmizin xarici ölkələrlə strateji tərəfdaşlığının sosial-iqtisadi əsasını təşkil edir. Bu baxımdan Azərbaycanın qonşu dövlətlərlə, o cümlədən də türk dünyası ölkələri ilə əlaqələrində respublikamızın regionları, ilk növbədə də Gürcüstan respublikası və Rusiya Federasiyası kimi iki qonşu dövlətlə sərhədlərin qovuşağında yerləşən Azərbaycanın şimal-qərb bölgəsinin rolunu xüsusi olaraq qeyd etmək lazımdır.

Azərbaycanın 2016-cı il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilmiş Şəki şəhərinin yerləşdiyi şimal-qərb bölgəsi respublikamızın xarici əlaqələr sistemində xüsusi yer tutan bölgələrimizdəndir. Bu barədə 2013-cü il iyunun 28-dən iyulun 4-dək Şəkidə keçirilmiş IV "İpək Yolu" Beynəlxalq musiqi festivalının iştirakçısı, ABŞ Dövlət Departamentinin "Amerikanın mədəni elçiləri" proqramı çərçivəsində festivala qatılmış Con Matias qeyd edir ki, belə tədbirlərin ölkələr arasında mədəni əlaqələrin inkişafındakı xüsusi əhəmiyyəti vardır [14].

Müasir beynəlxalq münasibətlərdə "mədəni cazibədarlıq" üçün böyük, əvvəllər praktiki olaraq istifadə olunmamış potensial mövcuddur. Məhz buna görə də biz mədəniyyət sektorunun dövlətlərin və beynəlxalq təşkilatların xarici siyasətində fəal iştirakını müşahidə edirik. Azərbaycanın şimal-qərb bölgəsində vaxtaşırı keçirilən beynəlxalq mədəni-kütləvi tədbirlər bu bölgənin respublikamızın beynəlxalq əlaqələr sistemində özünəməxsus yer tutmasına səbəb olmuşdur. Respublikamızın demək olar ki, hər il hansısa beynəlxalq əhəmiyyətli tədbirin keçirildiyi ən qədim şəhərlərindən olan Şəki şəhəri isə onun çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etməsi səbəbindən "festivallar şəhəri" kimi tanınır. Təsadüfi deyildir ki, 2013-cü ilin iyunun sonu, iyulun əvvəllərində Şəkidə keçirilmiş İpək Yolu IV Beynəlxalq musiqi festivalının iştirakçısı olmuş TÜRKSOY-un baş katibi Düsen Kaseinov Şəkini beynəlxalq festivalların, tədbirlərin keçirilməsi üçün ideal məkan adlandırmışdır [7].

Musiqi sahəsində beynəlxalq əlaqələr bəşər mədəniyyətinin ən qədim formaları ilə bağlı olduğundan mədəni mübadilənin ən qədim, ənənəvi sahələrindən biridir. Bu gün beynəlxalq musiqi əlaqələri musiqi müsabiqələri və festivalları, qastrol və repertuar mübadiləsi, birgə yaradıcılıq tədbirləri (birgə tamaşalar, xarici dirijorun, solistin dəvəti və s.) kimi formalarda həyata keçirilir [23, s. 122-125]. Qlobal mənada musiqi festivallarının əsas məqsədləri beynəlxalq əlaqələrin fəallaşmasına töhfə verməkdir. Çünki musiqi əlaqələri hətta dünyada dövlətlərarası ziddiyyətlər şəraitində də inkişaf edə bilər, eyni zamanda milli mədəniyyətlərin zənginləşməsinə və mədəni müxtəlifliyin qorunub saxlanmasına töhfə verir.

Bu baxımdan 2010-cu ildən etibarən Şəkidə keçirilən və artıq dünya musiqi ictimaiyyəti tərəfindən yetərincə tanınan "İpək Yolu" beynəlxalq musiqi festivalının keçirilməsini xüsusi olaraq qeyd etmək lazımdır. 2010-cu ildən etibarən Şəkidə Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin təşəbbüsü ilə hər il iyunun sonu – iyulun əvvəllərində Azərbaycanla yanaşı, Rusiya, Polşa, Hindistan, Ukrayna, Koreya, Norveç, Türkiyə, Gürcüstan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və s. kimi bir çox xarici ölkələrdən dəvət olunmuş musiqi, folklor və teatr kollektivlərinin iştirakı ilə "İpək Yolu Beynəlxalq Musiqi Festivalları keçirilir. Festivalın keçirilməsində əsas məqsəd Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin inkişaf etdirilməsi, bu əlaqələrdə onun bölgələrinin rolunun artırılması, nəticə etibarilə də bölgələrimizə turistlərin cəlb olunmasını təşviq etməkdir.

2012-ci ilin iyunun 30-dan iyulun 4-dək Şəki şəhərində keçirilmiş İpək Yolu III Beynəlxalq musiqi festivalına xarici dövlətlərin respublikamızdakı 30-a yaxın səfiri, Milli Məclisin üzvləri, Türkiyə və Gürcüstandan gəlmiş nümayəndələr, ümumilikdə 700-ə yaxın qonaq qatılmışdı [6]. 2013-cü il iyunun 28-dən iyulun 4-dək baş tutmuş İpək Yolu IV Beynəlxalq musiqi festivalında Amerika Birləşmiş Ştatlarından gəlmiş Filligar rok qrupu, Türkiyənin üç böyük kollektivi-Axşam səfası TRT orkestri və solistləri, Konya və Giresun şəhərlərinin rəqs qrupları, Koreya Respublikasını təmsil edən musiqi kollektivi və Azərbaycanın sənət ustaları çıxış etmişdilər [14].

Şəkidə keçirilən ənənə halını almış "İpək yolu" beynəlxalq musiqi festivalları ildən-ilə öz coğrafiyasını genişləndirirdi. Artıq 2014-cü ilin iyulun əvvəllərində keçirilmiş "İpək Yolu" V Beynəlxalq musiqi festivalında müxtəlif xarici ölkələrin respublikamızdakı diplomatik korpusunun nümayəndələri, Hindistan, Çin, Türkiyə və Rusiyanın, eləcə də Azərbaycanın teatr, musiqi, rəqs və folklor kollektivləri iştirak etmişdilər [19].

2024-cü ilin 5-7 iyul aralığında keçirilmiş "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində Rusiya Federasiyası Tatarıstan Respublikasından, Türkiyədən, Qazaxıstandan, Hindistandan, İndoneziyadan gəlmiş musiqi və rəqs kollektivlərinin çıxışları baş tutdu [21].

2013-cü ildə Azərbaycanın folklor paytaxtı elan olunan Zaqatala rayonunun "Hudulki" xalq kollektivi Belarusiyada keçiriləcək folklor festivalına dəvət alıb, həmin ildə Çexiyada keçirilən "Lidse"41-ci Beynəlxalq Uşaq İncəsənət sərgisinə Zaqataladan da əl işləri göndərilmişdi [8].

Qafqazda ilk dəfə olaraq Azərbaycanda 2015-ci il 22-26 avqust tarixlərində Şəkidə keçirilmiş "Nağara 2015" Beynəlxalq zərb alətləri festivalında Türkiyədən "İstanbul Harem" qrupu, İrandan "Lian" qrupu, Özbəkistandan isə Abbos Kosimovun ritm kollektivi kimi musiqi kollektivləri iştirak etmişdilər [17].

2013-cü ildən Şəkidə əsası qoyulan "Şirniyyat festivalı"nın sonrakı illərdə daha da genişlənməsi baş verməklə artıq 2015-ci ildə keşirilən ikinci festivalda Azərbaycanın 25 bölgəsindən, eləcə də Türkiyə, Rusiya, Fransa, Yunanıstan, Rumıniya, Moldova, Şimali Kipr Türk Cümhuriyyəti, Qazaxıstan, Qırğızıstan, Serbiya, Koreya Respublikası və İndoneziya kimi 12 ölkədən qənnadıçılar qatılmışdılar [4].

S.Rəhman adına Şəki Dövlət Dram Teatrı 2012-cü ilin aprelin 14-dən 24-ə kimi Türkiyənin Konya şəhərində keçirilmiş, ümumilikdə 10 ölkədən 350-dən çox teatr təmsilçilərinin iştirak etdiyi "Min nəfəs, bir səs" adlı türk dövlətlərin V Beynəlxalq teatr festivalında Azərbaycanı təmsil etmişdi [1].

Belə qənaətə gəlirik ki, müasir ikitərəfli mədəniyyət mübadiləsində festivallar ən populyar formalardan birinə çevrilib. Beynəlxalq münasibətlər sferasında, müxtəlif beynəlxalq siyasi hadisələri və tədbirləri öz mədəni proqramı ilə "bəzəyən" festivallar mühüm rol oynayır. Festivallar, həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə həyata keçirilən mədəni mübadilənin müstəqil forması kimi xüsusi önəm kəsb edirlər.

Mədəniyyətin beynəlxalq münasibətlərə fəal cəlb edilməsi mədəniyyət anlayışının özünün dəyişməsinə gətirib çıxarır: o, siyasətçilərin, jurnalistlərin, ictimai xadimlərin ritorikasında daha çox siyasiləşir, manipulyasiya və spekulyativ xarakter alır. S.Hantinqtonun konsepsiyasını xatırlatmaq kifayətdir ki, ona görə mədəniyyət sahəsi beynəlxalq münaqişələrin yeni əsas mənbəyinə çevriləcək. Toqquşmaların əsas səbəbləri yüksək sabitlik və gözlənilməzlik ilə xarakterizə olunan mədə-

niyyət və dindəki fundamental fərqlər, həmçinin müxtəlif sivilizasiyaların nümayəndələri arasında qarşılıqlı əlaqələrin intensivləşməsi və regionalizm meyllərinin artması olacaq [29, s. 61].

Müasir dövrün beynəlxalq münasibətlərinin bir xüsusiyyəti dövlətlərin xarici siyasət fəaliyyətində mədəniyyətin rolunun getdikcə artmasıdır. Bir çox ölkələrin siyasi strategiyasının həyata keçirilməsində mədəniyyət xüsusi rol oynayır. Qloballaşma müxtəlif mədəniyyətlər arasında dinc dialoqu getdikcə daha vacib edir. Dövlətin dünyadakı yerini və nüfuzunu təkcə enerji, hərbi-siyasi, maddi imkanlar deyil, həm də onun mədəni irsi müəyyən edir. Azərbaycanın bütövlükdə, o cümlədən də regionlarının mədəni potensialından çoxtərəfli beynəlxalq əməkdaşlıq maraqları naminə istifadə etmək dövlətin ən mühüm vəzifələrindən biridir. Bundan əlavə, mədəniyyət Azərbaycan Respublikasının milli təhlükəsizliyi təmin etmək üçün səylərini və resurslarını cəmlədiyi davamlı inkişafın prioritetlərindən biridir. Dövlətlər arasında mədəni əməkdaşlıq beynəlxalq münasibətlərdə mühüm həlqədir: o, milli mədəniyyətin inkişafına, təcrübə mübadiləsinə, təkcə mədəniyyət sahəsində deyil, digər sahələrdə də qarşılıqlı anlaşmaya nail olmağa kömək edir ki, bu da iqtisadiyyata və siyasətə müsbət təsir göstərir.

Azərbaycanın regionlarının, o cümlədən onun şimal-qərb bölgəsinin beynəlxalq mədəni əlaqələrində əsas məqsədi türk xalqlarının ortaq maddi-mədəniyyət abidələrinin qorunub saxlanılması, inkişafı və gələcək nəsillərə ötürülməsi üçün türk xalqları arasında əməkdaşlıq olan TÜRKSOY-un xüsusi rolu vardır. Türk dövlətləri arasında bu təşkilat vasitəsilə həyata keçirilən mədəni diplomatiya xalqlar arasında sülhü və qarşılıqlı anlaşmanı təşviq etmək üçün mədəni dəyərlərin müvəqqəti olaraq başqa ölkələrə ötürülməsinə imkan verən ictimai institutdur. Eyni zamanda, mədəni diplomatiya diplomatik fəaliyyət sahələrindən biri kimi mədəniyyətdən dövlətin xarici siyasətinin əsas məqsədlərinə nail olmaq, onun milli maraqlarını ifadə etmək, dövlətin xarici siyasətinin əsas məqsədlərinə nail olmaq üçün bir obyekt və vasitə kimi istifadə edilməsi, dövlətin milli maraqlarının ifadə edilməsi, dövlətin xarici siyasətinin əsas məqsədi haqqında xarici ölkələrdə əlverişli imicinin yaradılması ilə bağlıdır [28, s. 69].

Şəki şəhərinin elm, təhsil, turizm və digər bu kimi sahələrdəki real potensialını, imkanlarını, Şəkidə olan mədəniyyət müəssisələrinin vəziyyətini, mədəniyyət və turizm sahələrində olan perspektiv iş planlarını, mövcud layihələr, bu layihələr arasında şəbəkələşməni və digər bu kimi məsələləri müəyyən etmək məqsədi ilə UNESCO-nun eksperti, fransalı Patrisio Jeretikin rəhbərliyi ilə ilkin faktaraşdırıcı missiya 2010-cu ilin yayında Şəkidə səfərdə olmuşdular [22].

Şəki şəhəri 2012-ci ildə TÜRKSOY-un qərarı ilə "Türk xalqlarının qeyri-maddi mədəni irs paytaxtı" elan olunmuş, TÜRKSOY tərəfindən elan olunan M.F.Axundzadə ili çərçivəsində 2012-ci ildə keçirilən yubiley tədbirlərində TÜRKSOY-un üzvü olan ölkələrdən, o cümlədən Türkiyədən, Qazaxıstandan, Başqırdıstandan da qonaqlar iştirak etmişdilər [15].

TÜRKSOY Nazirlər Şurasının 2015-ci ilin noyabrında Türkmənistanın Marı şəhərində keçirilmiş 33-cü toplantısında Şəki şəhəri 2016-cı il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçimişdi [13]. 2016-cı il aprelin 28-də Şəkidə "Yuxarı Baş" Dövlət Tarixi-Memarlıq Qoruğunda BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının ("TÜRKSOY) baş katibi Düsen Kaseinov, Qazaxıstanın tanınmış yazıçısı Oljas Süleymenov, beynəlxalq təşkilatlardan, türk dövlətlərindən gəlmiş nümayəndə heyətləri, ölkəmizdəki səfirliklərin nümayəndələri və digər qonaqların iştirakı ilə "Türk dünyasının mədəniyyət paytaxtı – Şəki 2016" ilinin təntənəli açılış mərasimi baş tutmuşdur [9].

2016-cı ilin dekabrın 1-də Şəkidə Azərbaycan, Türkiyə, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Şimali Kipr və Qaqauz (Moldova) nümayəndə heyətlərinin qatıldığı TÜRKSOY Daimi Şurasının 34-cü toplantısında türk dünyasının mədəniyyət "paytaxt"ı estafeti Şəki şəhərindən, Qazaxıstanın Türkistan şəhərinə keçməklə, burada Azərbaycan, Türkiyə, İran, Qazaxıstan və Qırğızıstan tərəfindən UNESCO-ya birgə təqdim edilən Lavaş, katırma, jupka, yufka – nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildiyi bildirildi [18].

Azərbaycanın şimal-qərb bölgəsi respublikamızın mühüm turizm mərkəzlərindən biridir. Dünya iqtisadiyyatında aparıcı yerlərdən birini tutan turizm bir sıra ölkələrdə milli gəlirin əsas mənbəyinə çevrilmişdir ki, bu da çox vaxt onu beynəlxalq münasibətlərdə əhəmiyyətli təsir rıçaqına çevirir. Regional münaqişələrin sabitləşdirilməsində mühüm geosiyasi amil hesab olunan turizm qarşılıqlı mədəni anlaşmanı və sülhün möhkəmlənməsini təşviq edir. Bu ideya məqsədini sülhü və xalqlar arasında qarşılıqlı anlaşmanı möhkəmləndirməkdə görən Dünya Turizm Təşkilatının nizamnaməsində də əks olunub [27, s. 193].

Kütləvi turizmin inkişafı üçün regionun tarixi abidələri ilə zəngin olması mühüm şərtlərdən biridir. Turistlərin diqqət mərkəzində həmişə hər hansı regionun tarixi abidələri və görməli yerləri olur. Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərinin yerləşdiyi şimal-qərb bölgəsində mədəniyyətimizin çox dəyərli abidələri vardır.

Turizmin beynəlxalq münasibətlərə təsirini öyrənərkən "insan amili" nəzərə alınmalıdır - axı rəsmi məlumatlara görə hər il dünyada yüz milyonlarla beynəlxalq turist səfərləri həyata keçirilir. Bu, bütün dünyada milyonlarla insanın həyatının ayrılmaz hissəsinə çevrilmiş turizmin sosial rolunu müəyyən edir. Təkcə 2010-cu ildə Şəki-Zaqatala iqtisadi rayonunnun mehmanxanalarında 4260 nəfər xarici ölkə vətəndaşının yerləşdirilməsi [20, s. 56] faktı Azərbaycanın şimal-qərb bölgəsinin respublikamızın turizm sektorundakı rolunu bir daha əyani şəkildə göstərir.

2013-cü ildə keçirilmiş Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun, İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları və başqaları Şəkinin geniş turizm potensialına malik olduğunu xüsusi olaraq vurğulamışlar [3].

Mədəniyyətlərarası qarşılıqlı əlaqəyə əsaslanan sosial, humanitar, iqtisadi, təhsil və estetik aspektləri özündə birləşdirən beynəlxalq turizm xidmətlərini bu gün dünyanın 150-yə yaxın ölkəsi təklif edir [24, s. 38], onların hər biri öz milli koloritinə malikdir və cəlbedici turist imicini yaratmağa çalışır. Azərbaycanın beynəlxalq turizm sektorunda özünəməxsus yerini tutmasında respublikamızın yüksək turizm potensialına malik şimal-qərb bölgəsinin xüsusi yeri və rolu vardır.

Regionların beynəlxalq və xarici siyasət əlaqələrində ayrı-ayrı şəhərlərin qardaşlaşması xüsusi rola malikdir. Qardaşlaşma şəhərlər arasında mədəni və iqtisadi əlaqələrin inkişafına dair razılaşmadır. Bu zaman əməkdaşlıq daha çox təhsil, mədəniyyət, sosial və ya idman sahələrində baş verir. Qardaş şəhərlər xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, mədəni əməkdaşlıq, şəhərin hakimiyyət orqanları və təşkilatlarının qarşısında duran oxşar problemlərin həllində təcrübə mübadiləsi üçün birbaşa dostluq əlaqələri qurmuş müxtəlif ölkələrin şəhərləridir. Şəhərlərin qardaşlaşması əhali arasında yaxşı münasibətlərin inkişafına xidmət etməklə, bu da müəyyən şəhərlərdə mədəniyyətlərarası kommunikasiyaların yaxşılaşmasına kömək edir [27, s. 194].

Şəhərlərin qardaşlaşması zamanı onların arasındakı əlaqələrə dövlət qulluqçularının və sosial işçilərin, yaradıcı folklor kollektivlərinin, teatr truppalarının, musiqi kollektivlərinin, idman tədbirlərinin təcrübə mübadiləsi, tələbə və müəllimlərin qarşılıqlı təcrübə keçməsi, xüsusilə də uşaqların sağlamlığının möhkəmləndirilməsi və reabilitasiyası məsələlərini, investisiyaların cəlb edilməsi və birgə biznes layihələrinin yaradılması, birgə sərgilərin, iqtisadi forumların keçirilməsi, ekoloji və turizm layihələrinin həyata keçirilməsi və s. daxildir [26, s. 8].

Dünya elmində qardaşlaşma məsələsinə münasibətdə iki ümumi yanaşma mövcuddur: qardaşlaşmış şəhərlər arasında sosial-mədəni əlaqələrə diqqət yetirən Avropa və ya "kontinental" və qardaşlaşma çərçivəsində iqtisadi istiqamətə üstünlük verən Sakit Okean və ya "dəniz" yanaşması [26, s. 8].

Şəki ilə Türkiyənin Giresun, Lapseki, Meram, Berqam, Bolqarıstanın Qabrovo, Belorusun Slutsk, Gürcüstanın Telavi, Fransanın Kolmar, Xorvatiyanın Varajdin, Çinin Janciajiye, Lianşan, Özbəkistanın Kokand, Rusiyanın Novqorod, bütövlükdə dünyanın 13 şəhəri və Türkiyənin Bolu şəhərinin Göynük bələdiyyəsi arasında qardaşlaşma məqsədilə əməkdaşlıq barədə niyyət protokolu imzalanmışdır [11].

2013-cü ilin mart ayında Zaqatalaya səfər edən Polşa Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Mixail Labenda Polşanın bir şəhəri ilə Zaqatala arasında dostluq əlaqələ-

rinin yaradılmasının zəruriliyini xüsusi olaraq vurğulayıb. Səfər zamanı şar Rusiyası tərəfindən XIX əsrdə Zaqatalaya sürgün olunmuş polakların ibadət etməsi üçün qalanın yaxınlığında inşa olunmuş katolik kilsəsinə baş çəkən səfir həmin polyak əsirlərin bu bölgənin həyatında tarixən oynadıqları rolu xüsusi olaraq qeyd etməklə, səfərinin başlıca məqsədinin iki ölkə arasındakı əlaqələrdə məhz həmin tarixi təcrübədən istifadə etmək olduğunu qeyd etmişdi [8].

Ayrı-ayrı ölkələrin şəhərləri ilə qardaşlaşma Azərbaycan Respublikasının xarici siyasət istiqamətlərini, müxtəlif ölkələrlə inteqrasiya proseslərinin gücləndirilməsini əhatə etməlidir və bu işdə qardaşlaşma müsbət rol oynaya bilər. Qardaşlaşma münasibətlərinin mövcud təcrübəsi qəti şəkildə göstərir ki, regional və mərkəzi hakimiyyət orqanları tərəfindən şəhərlər arasında qardaşlaşma institutuna sistemli dəstək həm bu şəhərlərin özünü daha səmərəli inkişaf etdirməyə, həm də ümumilikdə ondan ictimai və xalq diplomatiyasının mühüm aləti kimi istifadə etməyə imkan verir.

Beynəlxalq iqtisadi münasibətlərin qloballaşması şəraitində regional inkişafın aktual məsələsi xarici investisiyaların cəlb edilməsi, onun səmərəli bölüşdürülməsi və istifadəsidir. Regionların xarici investisiya proseslərində səmərəli iştirakı onların innovativ inkişafı üçün güclü alətə çevrilə bilər.

Bu gün Azərbaycanda aqrar sektor qeyri-neft sektorunun strateji sahələrindən biridir və ona görə də dövlətin iqtisadi siyasətində onun inkişafına mühüm yer verilir. Azərbaycanda bu sahənin uğurlu inkişafı üçün hər cür şərait - münbit torpaq, mülayim iqlim, xarici bazarlara yaxınlıq və s. vardır. Regionların ixrac potensialının artırılmasının təmin edilməsi üçün xarici investisiyanın cəlb edilməsi zəruridir. Bunu Azərbaycanın şimal-qərb bölgəsinin, çeşidli kənd təsərrüfatı məhsullarının istehsal olunduğu, İpək-parça istehsalı kimi sahələrin geniş inkişaf tapdığı Şəki-Zaqatala iqtisadi rayonunun timsalında nəzərdən keçirək. Məhz bu məqsədlə 2011-ci ilin iyulun sonlarında İsrailin Azərbaycandakı səfiri Mixael Lavon-Lotem Azərbaycanın şimal-qərb bölgəsinə səfər etmişdir. İsrail dövlətinin Azərbaycanın bu əlverişli iqlim şəraitinə malik olduğu bölgəsi ilə kənd təsərrüfatının müxtəlif sahələrində əlaqələrin yaranmasında, habelə turizm sahəsində əməkdaşlıqda maraqlı olduğunu qeyd edən səfir, həmçinin bildirmişdir ki, növbəti illərdə israilli iş adamlarının rayona işgüzar səfərlərini təşkil etmək əlaqələrin inkişafına müsbət təsir göstərə bilər [10].

2013-cü ildə Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi qrant yardım Proqramı" çərçivəsində həyata keçirilən layihə nəticəsində Zaqatalanın Qəbizdərə və Lahıc kəndlərində yeni qazılacaq artezian quyuları ilə bağlı imzalanma mərasimi keçirilib və layihənin icrasına başlanılıb [8].

2009-2018-ci illərdə ayrı-ayrı respublikaların prezidentləri, Azərbaycana rəsmi səfər edən şəxslər, səfirlər, partiya sədrləri, qeyri-hökumət təşkilatlarının başçıları və digərləri Azərbaycanın şimal-qərb bölgəsində olmuşlar. 2009-cu ilin avqustun əvvəllərində Azərbaycanda səfərdə olan Latviya prezidenti Valdis Zatlers Azərbaycanın Şimal-qərb bölgəsində də olmuşdur. O, əvvəlcə Zaqatala rayonuna səfər edib [5], avqustun 11-də Şəki şəhərinə gəlmişdir [12].

2010-cu ilin mayın sonlarında Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov həmin ayın 25-də respublikamızın şimal-qərb bölgəsinə gəlmişdi. Onun Zaqataladan başlanan səfəri Şəkidə davam etməklə Qəbələ rayonunda başa çatmışdır. Səfər zamanı o, bu bölgənin sənaye və kənd təsərrüfatı müəssisələrində olmuşdur [2].

"Avropa Avtobus Turu-2017" layihəsinin "Şəki Avropa şəhərciyi" tədbiri çərçivəsində 2017-ci ilin sentyabrın 23-də Şəki şəhərindəki "Marxal" müalicə-istirahət kompleksində Şəki şəhər rəhbərliyi ilə Avropa İttifaqına üzv ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirlərin nümayəndələrinin görüşü keçirilmişdi. Görüşdə səfirliklərin təmsilçilərinə Azərbaycanın bu qədim diyarının tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə geniş məlumat verilmişdi [16, s. 603].

**YEKUN NƏTİCƏ**

Aparılmış tədqiqata yekun vuraraq qeyd etmək lazımdır ki, Azərbaycanın regionlarının beynəlxalq münasibətlərdə iştirakını inkişaf etdirmək üçün regionlarda və bütövlükdə ölkədə sabit siyasi vəziyyət, habelə ayrı-ayrı bölgələrin davamlı iqtisadi inkişaf tempi zəruridir. Bölgələrin, ilk növbədə Azərbaycanın şimal-qərb bölgəsinin potensialından Azərbaycan mədəniyyətinin, incəsənətinin

dünyada təbliği məqsədilə istifadə oluna bilər. Eləcə də bu diyarın turizm imkanları və iqtisadi potensialı Azərbaycanın qeyri-neft sektorunun iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsi strategiyası çərçivəsində xarici investorların cəlb olunması, burada ekoloji cəhətdən təmiz "yaşıl sənayenin" inkişafı, habelə kənd təsərrüfatının xarici qabaqcıl təcrübə və aparıcı şirkətlərin iştirakı ilə çağdaş standartlara uyğun qurulması baxımından geniş perspektivlər vəd edir.

## ƏDƏBİYYAT


1. Babayeva, S. Şəki Dram Teatrı Konyada beynəlxalq festivalda // Mədəniyyət. 2012, 18 aprel. s. 5
2. Dağıstan Prezidenti Azərbaycanın Zaqatala, Şəki və Qəbələ rayonlarında səfərdə olmuşdur. Azərbaycan. 2010. 26 may. s. 6
3. Əhmədoğlu, M. Min illərin şəhərində yeni dövran başlayıb // Ədalət. – 2014, 12 mart. – s. 6
4. Əhmədoğlu, M. Şəki: Mədəniyyət və turizm sektorunun mühüm bazası // Ədalət. – 2015, 3 oktyabr – s. 3
5. https://apa.az/xarici-siyaset/-161035
6. Həsənov İ. Zaqatala: burada təsadüf olmur. Xalq qəzeti, 6 iyun, 2013
7. Həsənov, İ. Şəki Azərbaycanın mədəniyyət mərkəzlərindən birinə çevrilir // Xalq qəzeti. – 2013, 12 mart. – s. 10.
8. Həsənov, İ. Şəki: reallıqlar və perspektivlər // Xalq qəzeti. – 2014, 24 iyul. – s. 6
9. Hüseynov, F. Türk dünyasının mədəniyyət paytaxtı Şəki. Qədim şəhərdə "paytaxt ilinin" təntənəli açılış mərasimi keçirilib // Mədəniyyət. – 2016, 29 aprel. – s. 5.
10. https://azertag.az/xeber/israilin_azerbaycandaki_sefiri_zaqatalada_olmusdur-34828
11. http://sheki-ih.gov.az/az/qardaslasmis-seherler.html
12. Qədim və müasir Şəki Latviya Prezidentini heyran etmişdir // Azərbaycan. – 2009, 13 avqust. – s. 2.
13. "Mədəniyyət paytaxtı" ilinin tədbirlər planı müzakirə olunub // Mədəniyyət. – 2016, 17 fevral. – s. 3
14. Nəzərli, T. «İpək Yolu» IV Beynəlxalq musiqi festivalı uğurla başa çatdı // Azərbaycan. – 2013, 9 iyul. – s. 11
15. Nəzərli, T. Qədimliyin və müasirliyin qovuşduğu diyar // Azərbaycan. – 2012, 7 noyabr. – s. 6
16. Regionların sosial-iqtisadi inkişafı (2014-2018-ci illər) (statistik məcmuə) / Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2019. 647 s
17. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun 2015-ci ildə Şəkinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair məruzəsi: [Elektron resurs] / http://sheki-ih.gov.az/page/37.html#2015
18. Şəkidə TÜRKSOY Daimi Şurasının 34-cü toplantısı keçirilir // 525-ci qəzet. – 2016, 2 dekabr. – s. 1-3
19. Şəkidə "İpək Yolu" V Beynəlxalq musiqi festivalı başa çatıb // Palitra. – 2014, 8 iyul. – s. 13
20. Şəki-Zaqatala iqtisadi rayonunun pasportu / – Bakı: – 2011. – 79 s.
21. Təhmirazqızı S. Növbəti "İpək Yolu" musiqi festivalı tarixə çevrildi // Mədəniyyət .-2024.- 10 iyul, №51.- S.1;3
22. UNESCO-nun faktaraşdırıcı missiyası Şəkidə olub // Mədəniyyət. – 2010, 11 iyun. – s. 6
23. *Богомолова, Н.М., Николаева Ю.В.* Межкультурная коммуникация и международный культурный обмен. – СПб., 2009.
24. Воронкова Л.П., Полозова А.М. Глобализация Международного туризма как фактор развития международных отношений. Вестник Московского Университета. сер. XXVII. Глобалистика и геополитика. 2016. № 3. с. 35-39
25. https://dpr.ru/pravo/pravo_25_7.htm
26. https://sfk-mn.ru/PDF/50SCSK322.pdf

27. Напсова А.Е. Побратимские связи как инструмент развития межкультурного отношения в туризме. Побратимские отношения г. Пятигорска. Вестник магистратуры. 2013, 12 (27). – с. 193-196
28. Сидорова Е.А. Культурный фактор в отношениях России и Европейского союза. Вестник международных организаций. Том 9, №3, 2014. – с. 68-82
29. https://elar.urfu.ru/bitstream/10995/62855/1/iuro-2018-179-06.pdf

## ABOUT THE ROLE OF REGIONS IN INTERNATIONAL RELATIONS (USING THE NORTHWESTERN REGION OF AZERBAIJAN AS AN EXAMPLE)

**N.G. Karimova**

The article examines specific aspects of the regional contribution to the establishment of international relations of the country using the northwestern region, especially the Sheki district of Azerbaijan as an example. It is particularly emphasized that the unitary form of government of Azerbaijan determines its own rules and features of the participation of the country's regions in the country's external relations; the regions do not act as parties endowed with the attributes of subjectivity, as is the case with federal states, but as integral parts of the Republic of Azerbaijan, called upon to carry out tasks arising from the strategic goals of the entire country. In the article, using the northwestern region of the country as an example, this thesis is clearly confirmed based on various facts. At the same time, special emphasis is put on the cultural ties of the region, which contribute to the general cultural communication of Azerbaijan with the outside world. An analysis of the facts of international cooperation in this region allowed us to conclude that the potential of the regions, primarily the northwestern region of Azerbaijan, can be used to promote Azerbaijani culture and art in the world, and economic opportunities and tourism potential promise advantageous prospects.

**Key words:** *regions, northwestern region of Azerbaijan, international relations, "Silk Road" international music festival, foreign economic relations.*

## О РОЛИ РЕГИОНОВ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ (НА ПРИМЕРЕ СЕВЕРО-ЗАПАДНОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА)

**Н.Г. Каримова**

В представленной статье на примере северо-западного региона, особенно же Шекинского района Азербайджана исследуются конкретные аспекты регионального вклада в налаживании международных отношений страны. Особо подчеркивается, что унитарная форма государственного устройства Азербайджана обуславливает свои правила и особенности участия регионов страны во внешних связях страны; регионы при этом выступают не в качестве сторон, наделенных атрибутами субъектности, как в случае с федеративными государствами, а как неотъемлемые составные части Азербайджанской Республике, призванные выполнять задачи, вытекающие из стратегических целей всей страны. В статье на примере северо-западного региона страны на основе разных фактов данный тезис получает наглядное подтверждение. При этом особый упор делается на культурных связях региона, вносящих свою лепту в общекультурную коммуникацию Азербайджана со внешним миром. Анализ фактов международного сотрудничества данного региона позволил сделать вывод, что потенциал регионов, в первую очередь северо-западного региона Азербайджана, может быть использован в целях продвижения азербайджанской культуры и искусства в мире, а экономические возможности и туристический потенциал сулят многообещающие перспективы.

**Ключевые слова:** *регионы, северо-западный регион Азербайджана, международные отношения, международный музыкальный фестиваль «Шелковый путь», внешнеэкономические связи.*